**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU**

*Əlyazması hüququnda*

**TALEH VASİF OĞLU ƏLİYEV**

# ƏLİCAN VƏ TÜRYANÇAY HÖVZƏSİNİN TARİXİ – ARXEOLOJİ TƏDQİQİ (IV – XIII ƏSRLƏR)

**5505.02 – Arxeologiya**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2014**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun "İlk orta əsrlər arxeologiyası" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Qafar Cəfər oğlu Cəbiyev**
*tarix üzrə elmlər doktoru*

**Rəsmi opponentlər:** **Vəli Hüseyn oğlu Əliyev**
*AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru, professor*
**Təvəkkül Rəsul oğlu Əliyev**
*tarix üzrə fəlsəfə doktoru*

**Aparıcı elmi müəssisə:** Bakı Dövlət Universitetinin **"Arxeologiya və Etnoqrafiya"** kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdində fəaliyyət göstərən tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yaradılmış (5505.02 – "Arxeologiya") dissertasiyaların müdafiəsini keçirən F/D 01.171 Dissertasiya Şurasının "_28__" _11___ 2014-cü il tarixli iclasında saat "___"də keçiriləcəkdir.

**Ünvan: Bakı şəhəri, AZ 1043 H.Cavid prospekti 115**
Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür.
Avtoreferat "___" ___________ 2014-cü ildə göndərilmişdir.

**F/D 01.171**
**Dissertasiya Şurasının**
**elmi katibi** **Səfər Hüseyn oğlu Aşurov**
*tarix üzrə fəlsəfə doktoru*

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan tarixində mühüm əhəmiyyət kəsb edən IV – XIII əsr abidələrinin arxeoloji cəhətdən tədqiqi elmin aktual məsələlərindəndir. Tədqiq etdiyimiz dövr Azərbaycan (Qafqaz) Albaniyanın ilk orta əsrlər mərhələsini, Xilafət dövrü və Şirvanşahların hakimiyyəti dövrünün ilk yarısını əhatə edir. Bu səbəbdən tədqiqat zamanı həm bütpərəst, həm xristian, həm də müsəlman abidələrinin tədqiqi xronoloji ardıcıllıqla verilmişdir. Tədqiqatın əhatə etdiyi dövr həm də Azərbaycan xalqının formalaşması prosesinin izlənilməsi baxımından elmi əhəmiyyət kəsb edir. Qeyd olunan məqamlar əlbəttə ki, təqdim olunan mövzunun aktuallığından xəbər verir.

Tədqiqat işində Əlican və Türyançay hövzəsində yerləşən şəhər və kənd tipli yaşayış yerləri ilk dəfə sistemli şəkildə arxeoloji tədqiqata cəlb edilərək öyrənilmişdir. Nəticədə həm IV – XIII əsrlərə aid yaşayış yerlərinin lokallaşdırılması problemi sahəsində müəyyən yeniliklər ortaya qoyulmuş, həm də onların dövrü haqqında xronoloji baxımdan elmi nəticələr əldə edilmişdir.

Müdafiə istehkamlarının tədqiqi isə ərazinin siyasi-inzibati və tarixi-siyasi coğrafiyasında da bəzi elmi məsələlərin dəqiqləşdirilməsinə zəmin yaratmışdır. Burada istər qalaların, istərsə də şəhər ətrafı ərazilərdə inşa olunmuş gözətçi məntəqələrinin mövcudluğu ərazidə müdafiə işinin yüksək səviyyədə qurulduğundan xəbər verir.

Əlican və Türyançay hövzəsinin IV – XIII əsrlərə aid qəbir abidələri içərisində yerli xalqa məxsus bütpərəst, xristian və müsəlman qəbirlərinin öyrənilməsi qeyd edilən dövrdə xronoloji baxımdan ardıcıl olaraq əhalinin dini dünyagörüşünü öyrənməyə imkan yaratmışdır. Bu fikir dini-memorial abidələr üçün də xarakterikdir. Belə ki, Əlican və Türyançay hövzəsinin IV – XIII əsr dini-memorial abidələri içərisində atəşpərəst, xristian və müsəlman memarlığına məxsus abidələrin tədqiqi deyilənləri əsaslandırır.

Qeyd edilən tədqiqat obyektlərində aparılmış arxeoloji qazıntı və çöl-tədqiqat işləri zamanı əldə olunmuş maddi

mədəniyyət nümunələrinin təsnifatı və ayrı-ayrılıqda öyrənilməsi Əlican və Türyançay hövzəsi əhalisinin IV – XIII əsrlərdə məşğuliyyətinin də tədqiqinə şərait yaratmışdır.

Beləliklə, dissertasiya işində Azərbaycan arxeologiyasında mühüm bir dövr kimi IV – XIII əsr arxeoloji abidələrinin tədqiqi və tarixi Azərbaycan torpaqlarının tərkib hissəsi olan Əlican – Türyançay hövzəsinin maddi-mədəniyyətdəki irsilik prinsipinin üzə çıxarılması kimi aktual məsələlər öz əksini tapmışdır.

**Tədqiqatın xronoloji çərçivəsi.** Dissertasiya işinin xronoloji çərçivəsi IV – XIII əsrləri əhatə etməklə, ilk orta əsr Azərbaycan (Qafqaz) Albaniyası, Xilafət dövrü və Şirvanşahların ilkin dönəmini özündə əks etdirir. Ərazi ilk orta əsrlərdə Azərbaycan (Qafqaz) Albaniyasının, Xilafətin parçalanmasından sonra isə Şirvanşahlar dövlətinin tərkib hissəsinə çevrilmişdir. Dissertasiya işinin xronoloji çərçivəsinin IV – XIII əsrləri əhatə etməsi tədqiqatın mənbəşünaslıq bazası və tarixi – arxeoloji abidələri, bölgənin siyasi-ictimai və sosial-iqtisadi tarixi ilə bilavasitə əlaqədardır. Dissertasiya işində tədqiqata cəlb olunmuş yaşayış yerləri və müdafiə istehkamlarının əksəriyyəti bir neçə mədəni qatdan ibarətdir. Onların hamısının ilk orta əsrlər dövrünə aid mədəni təbəqəsi vardır. Abidələrin əksəriyyətinin üst mədəni təbəqəsi IX – XIII əsrlərə aid maddi mədəniyyət nümunələri və tikili qalıqları ilə tamamlanmışdır. Həmçinin, tədqiqat işinin xronoloji çərçivəsi ərazidə ardıcıl olaraq bütpərəstlik, xristianlıq və İslam adət-ənənəsinə uyğun qəbir abidələri, memorial abidələr və maddi mədəniyyət nümunələrinin daha dərindən öyrənilməsinə yardım etmiş olur. Dissertasiya işinin xronoloji çərçivəsinin IV əsrdən başlanması bu dövrdə Azərbaycanda yeni ictimai münasibətlərin – feodalizmin yaranması, XIII əsrdə başa çatması isə monqol işğalları ilə əlaqədar əksər yaşayış yerlərindəki dağıntılarla əlaqələndirilməlidir.

**Tədqiqatın obyekti.** Dissertasiya işinin tədqiqat obyektini Əlican - Türyançay hövzəsinin IV – XIII əsr arxeoloji və memarlıq abidələri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi IV - XIII əsrlərdə Əlican - Türyançay hövzəsindəki yaşayış yerlərində

həyatın yaranma, inkişaf və tənəzzül dinamikasını, əhalinin təsərrüfat həyatını, dini görüşlərini, sənətkarlığın inkişaf səviyyəsini, memarlıq və qəbir abidələrinin yayılma ərazisini və spesifik xüsusiyyətlərini elmi cəhətdən araşdırmaqdan ibarətdir. Tədqiqatın başlıca vəzifəsi Azərbaycan (Qafqaz) Albaniyası və Şirvanşahlar dövləti tarixinin ayrı-ayrı problemlərinin öyrənilməsində bütövlükdə Əlican - Türyançay hövzəsi abidələrinin yerini və rolunu müəyyənləşdirmək, onların timsalında ölkənin təsərrüfat və mədəni həyatında baş vermiş yenilikləri izləməkdir.

**Mövzunun mənbəşünaslıq bazası.** Tədqiqat işinin mühüm mənbəşünaslıq bazası arxeoloji materiallara və ərazidən əldə olunan təsadüfi tapıntılara əsaslanan maddi mədəniyyət nümunələridir. Bununla yanaşı dissertasiya işində imkan olduğu hallarda yazılı mənbə məlumatlarının arxeoloji materiallarla uzlaşdırılması da daim diqqətdə saxlanılmışdır.

Problemin öyrənilməsində ilk orta əsr və orta əsr yazılı mənbələrindən Musa Kalankatlı, əl-Yaqubi, ət-Təbəri, İbn əl-Əsir, əl-Bəlazuri, əl-Məsudi, İbn Hövqəl, Həmdullah Qəzvini, Yaqut əl-Həməvi və digərlərinin məlumatlarından istifadə edilmişdir. Bu mənbələrdə bəzi kənd tipli yaşayış yerləri və şəhərlər haqqında yazılı məlumatlar verilir. Yerağzı və Gur-gur şəhər yerləri haqqında yazılı məlumatlara ərəb və monqol dövrü farsdilli mənbələrdə rast gəlmək mümkündür. Ərəş şəhəri haqqında isə ərəb, türk, Avropa, rusdilli mənbələrdə məlumatlar var.

**Problemin öyrənilmə dərəcəsi.** Azərbaycanda ilk orta əsr abidələrinin arxeoloji tədqiqi 1829-cu ildə məhz Türyançay sahillərindən başlayır. A.Yanovski tərəfindən əsası qoyulan tədqiqat işləri Çuxur-Qəbələ yaxınlığında Qəbələ şəhərgahının Qala hissəsinin tapılması ilə başlayır. Qəbələ şəhərinin İlk orta əsr təbəqəsi ilə zəngin olan Səlbir hissəsində isə 1944-cü ildə S.M.Qazıyevin rəhbərliyi ilə arxeoloji qazıntı işləri aparılmış və bu zaman III – V əsrlərə aid maddi mədəniyyət nümunələri, o cümlədən, saxsı təknə qəbirləri üzə çıxarılmışdır. Dağılmış halda olan qəbirlərdə ölülər bükülü vəziyyətdə olmuşdur. Qəbirlərdən yalnız birində tunc qolbaq qeydə alınmış və həmin qəbir III – V

əsrlərə aid edilmişdir.

Türyançayın sol sahili boyu və çayın sol qolları yaxınlığında arxeoloji tədqiqat işləri sonrakı onilliklərdə intensiv xarakter alır. 1959-cu ildə S.M.Qazıyevin rəhbərliyi ilə tədqiqat işləri nəticəsində Səlbir və Qala ərazisində ilk orta əsr tikililəri, qəbirlər (torpaq və katakomba), digər maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Arxeoloji qazıntı işləri burada VII – VIII əsrlərə aid şəhər həyatından xəbər verir. Son illərdə Səlbirdə arxeoloji qazıntı və tədqiqat işləri Cənubi Koreya Respublikasından olan arxeoloqlar tərəfindən daha geniş miqyasda davam etdirilmişdir. Şəhərin Qala hissəsində Q.C.Cəbiyevin rəhbərliyi ilə aparılan arxeoloji qazıntı işləri zamanı 1981-1989 və 2005-2014-cü illərdə Qəbələnin ilk orta əsr və orta əsrlər tarixinə dair bir sıra maraqlı tapıntılar əldə olunmuşdur.

1986-cı ildə Bideyiz məbədi qeydə alınmış və tədqiqata cəlb edilmişdir. A.M.Məmmədovun Yevlax rayonunun Gülövşə kəndindəki ilk orta əsr (III-VIII əsrlər) yaşayış yeri və qəbir abidələrində, Ə.Ə.Əliyevin həmin rayonun Gövhər kəndinin 1,5 km şimal-qərbində Malbinə İcra Nümayəndəliyi ərazisindəki küp qəbirlərdə, eləcə də Bakı-Ceyhan neft kəməri xəttinin çəkilişi ilə əlaqədar xəttin 204-cü kilometrliyində - Yəldili kəndindəki abidələrdə arxeoloji qazıntılar zamanı əldə edilən maddi mədəniyyət nümunələrini də xüsusi olaraq qeyd etmək lazımdır. R.M.Vahidov (1947-ci il), A.B.Nuriyev (1984-cü il) və A.M.Məmmədov (2007-ci il) tərəfindən Ərəş qalasında aparılan arxeoloji tədqiqatlar zamanı da əhəmiyyətli tapıntılar və elmi nəticələr əldə olunmuşdur.

1972-ci ildə Ağdaş rayonunun Şıxlı kəndində təsadüfən üç nefli bazilika tipinə aid olan alban xristian məbədinin qalıqları və yastı daş lövhələrlə örtülmüş 3 xristian torpaq qəbri üzə çıxarılmışdır.

Son illərdə Oğuz rayonu ərazisində aparılmış arxeoloji qazıntılar bölgədə Son Tunc – İlk Dəmir dövründən başlayaraq XIII əsrə qədər həyatın intensiv şəkildə davam etdiyini sübut etmişdir. Belə ki, N.M.Muxtarovun Qazı yeri, Dərə Zəmin, Ceyil və Kərimli abidələrində apardığı tədqiqatlar deyilənləri

əsaslandırır. Qəbələ ərazisində Qala yeri – Qaş adı ilə tanınan abidənin üst təbəqəsi isə ilk orta əsrlər dövrünü əhatə edir. Burada 23 küp qəbir öyrənilmiş və bunların içərisində uşaq qəbirlərinin də olduğu müəyyənləşdirilmişdir.

Ümumilikdə, tədqiqat zamanı materialların analizi və müqayisəli təhlil metodundan istifadə etmək üçün Z.M.Bünyadov, R.M.Vahidov, S.M.Qazıyev, V.H.Əliyev, Q.S.İsmayılzadə, M.N.Nemətova, İ.M.Cəfərzadə, Ö.Ş.İsmizadə, Q.M.Əhmədov, C.A.Xəlilov, N.M.Vəlixanlı, F.C.Məmmədova, A.B.Nuriyev, V.O.Piriyev, R.B.Göyüşov, İ.A.Babayev, S.Ş.Aşurbəyli, Q.C.Cəbiyev, T.M.Məmmədov, K.T.Əliyev, A.M.Məmmədov, F.V.Qədirov, M.C.Xəlilov, A.Ş.Orucov, V.F.Minorski, F.L.Osmanov, Q.M.Aslanov, A.İ.Ələkbərov, V.H.Əsədli, B.M.Cəlilov, A.M.Quliyev, M.M.Hüseynov, A.B.Məmmədova, N.T.Vəlişov, V.A.Abbasov, Q.L.Qoşqarlı, V.V.Bartold, Ə.Ə.Əliyev, Ş.S.Əhmədov, N.A.Əliyeva, G.H.Məmmədova, C.V.Bağırzadə, S.K.Allahverdiyeva, G.O.Hacıyev, V.A.Qasımlı, K.M.Məmmədzadə, M.M.Mustafayev, Ş.M.Nəcəfov və başqa mütəxəssislərin elmi əsər və hesabatlarına müraciət olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi və təcrübi əhəmiyyəti.** Əlican - Türyançay hövzəsinin tarixi – arxeoloji abidələri müəllif tərəfindən ilk dəfə olaraq kompleks şəkildə tədqiqata cəlb olunmuş, ərazidəki IV – XIII əsr yaşayış yerləri, müdafiə istehkamları və qəbir abidələri öyrənilmişdir. Alban məbədlərinin, məscidlərin, Tərkəş arxeoloji kompleksində qala yerinin və Ərəş şəhərinin qala divarları və İç şəhər hissəsinin 3 D (three dimension) formatında planı hazırlanmış, bir sıra yeni yaşayış yerləri ilk dəfə qeydə alınaraq tədqiq edilmişdir. Yerağzı və Gur-gur şəhər yerləri, iki alban məbədi ilk dəfə elmi ədəbiyyata gətirilmişdir.

**Tədqiqatın nəzəri və metodoloji əsası.** Dissertasiya işinin nəzəri – metodoloji əsasını müxtəlif ərazilərdən əldə edilmiş həmdövr maddi-mədəniyyət nümunələri ilə müqayisəli təhlil və ümumiləşdirmə - oxşarlıq metodu təşkil edir.

**Dissertasiyanın aprobasiyası.** “Azərbaycanın Əlican - Türyançay hövzəsi abidələrinin tarixi – arxeoloji tədqiqi (IV –

XIII əsrlər)” adlı dissertasiya işi AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun “Azərbaycanın İlk orta əsrlər arxeologiyası” şöbəsində yerinə yetirilmişdir. Elmi işin mühüm müddəaları müəllifin müxtəlif elmi konfranslardakı məruzə və çıxışlarında, habelə, nəşr etdirmiş olduğu elmi məqalə və tezislərdə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu:** Dissertasiya işi qəbul olunmuş ixtisarlar, giriş, üç fəsil, nəticə, ədəbiyyat siyahısı, işə əlavə edilmiş plan, xəritə, tablo və şəkillərdən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində mövzunun aktuallığı, mənbəşünaslıq bazası, öyrənilmə dərəcəsi, xronoloji çərçivəsi, elmi yeniliyi, tədqiqat metodu, aprobasiyası və quruluşundan bəhs olunur.

Dissertasiyanın **I fəsli “Yaşayış yerləri və müdafiə istehkamları”** adlanır və dörd yarımfəsildən ibarətdir. Bu fəsildə ərazinin geoloji quruluşu, coğrafi şəraiti və xammal ehtiyatlarından bəhs olunur, həmçinin, ərazinin iqlim xüsusiyyətləri, relyefi, təbii su ehtiyatlarından bəhs olunur. Burada Əlican – Türyançay hövzəsinin IV – XIII əsr yaşayış yerləri və müdafiə istehkamları tədqiq olunur.

Birinci yarımfəsil **1.1. “Ərazinin təbii-coğrafi xarakteristikası və tarixi-siyasi coğrafiyası”** adlanır. Burada Əlican və Türyançay hövzəsinin iqlim, landşaft və geoloji xüsusiyyətləri, xammal və su ehtiyatları haqqında məlumat verilir, mənbə məlumatları və tarixşünaslıqda öz əksini tapmış yazılı materiallar əsasında IV – XIII əsrlərdə ərazinin siyasi – inzibati xəritəsi barədə söz açılır. Həmçinin, bir sıra toponimlər, etnonimlər və hidronimlərin elmi cəhətdən lokalizəsi verilir.

İkinci yarımfəsil **1.2. “Şəhərlər”** adlanır. Əlican və Türyançay hövzəsində IV – XIII əsrlərdə dörd şəhər yerinin tədqiqi aparılmışdır. Arxeoloji tədqiqatlar nəticəsində Qəbələ və Ərəş şəhərlərinin mühüm sənətkarlıq və ticarət mərkəzləri kimi xarakterizə olunur. Yerağzı və Gur-gur yaşayış yerlərinin isə lokal əhəmiyyətli şəhərlər olduğu qənaətinə gəlinir. Arxeoloji

tədqiqatların yazılı mənbə məlumatları ilə uzlaşdırılması nəticəsində Yerağzı şəhər yerinin Bərdic, Gur-gur şəhər yerinin isə Qutluq-Balıq şəhərinin yeri olduğu güman olunur.

Üçüncü yarımfəsil **1.3. "Kənd tipli yaşayış yerləri"** adlanır. Bu yarımfəsildə Əlican və Türyançay hövzəsində yerləşmiş IV – XIII əsrlərə aid Molla Qoruqlu, Əkşəm, Tikanlı, Aşağı Ləki, Qalatəpə, Calut, Bulaqlıdərə, Qala-Piruz, Dəlləktəpə, Köbər Mıxı, Solğuca, Təzəkənd, Üçtəpə, Qaraultəpə, Varvara, Gülövşə, Sincan, Qala, Ərəbbəsrə, Abdallı, Marzılı, Xasa arxı, Gümüşlü, Kolanı, Məlikumudlu, Qaramanlı, Şəhərgah, Pirəşərif, Sarıqaya, Nəmirli, Balaşum, Ağcaburun, Şilyan və Çiyni kimi kənd tipli yaşayış yerləri tədqiqata cəlb olunmuşdur. Bu kənd tipli yaşayış yerləri elmi işdə xronoloji ardıcıllıqla öyrənilmişdir. Belə ki, əvvəlcə ilk orta əsr, daha sonra IX – XIII əsrlərə məxsus kənd tipli yaşayış yerləri tədqiq olunmuşdur. Qeyd etmək lazımdır ki, yaşayış yerlərinin bəziləri yalnız ilk orta əsrlər və ya IX – XIII əsrlər dövrünü əhatə etməklə bir mədəni təbəqədən, digər qismi isə ilk orta əsr və IX – XIII əsrlərə aid olmaqla iki mədəni təbəqədən ibarətdir.

Dördüncü yarımfəsil **1.4. "Müdafiə istehkamları"** adlanır. Elmi işdə Tərkəş, Oğuz, Muxas, Aydınbulaq, Küngüt, Surxab, Qız qalaları, həmçinin, Govurqala tipli müdafiə istehkamlarından olan Xaçmaz, Kəldək və Bum qalaları (Axıtəpə ilə birlikdə) tədqiqata cəlb edilmişdir. Ərəblərin hücumundan sonra Govurqala tipli abidələr demək olar ki, dağıdılmış və öz əhəmiyyətini itirmişdir. İslam dininin qəbul edilməsindən sonra isə adını saydığımız digər qalalar ərazinin müdafiə işində önəmli rol oynamışdır.

Dissertasiyanın **II fəsli "Qəbir abidələri və dini-memorial tikililər"** adlanır. Dissertasiya işinin bu fəsli iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **2.1. "Qəbir abidələri"** adlanır. Əlican – Türyançay hövzəsində qəbir tipləri torpaq, küp, saxsı taknə, katakomba, daş qutu, sarkofaq tipli qəbirlər əsasında tədqiq edilmişdir. Tədqiqatın xronoloji çərçivəsindən asılı olaraq ərazidə arxeoloji qazıntılar zamanı üzə çıxarılmış qəbir abidələri əhalinin dünyagörüşü olaraq bütpərəst, xristian və müsəlman qəbirlərinə

aid edilmişdir. Bütpərəst qəbirləri daha çox küp, katakomba, saxsı təknə və daş qutu qəbirlərdə izlənilmiş, torpaq qəbirlər isə əsasən xristian və müsəlman əhaliyə məxsus olmuşdur. Lakin tədqiqatlar göstərmişdir ki, bu qəbirlər eyni etnomədəni irsin daşıyıcısı olan Azərbaycan xalqına məxsusdur.

İkinci yarımfəsil **2.2. "Dini-memorial tikililər"** adlanır. Burada atəşpərəst məbəd yerləri, alban xristian məbədləri, İslam memorial abidələrinin öyrənilməsi də dissertasiyanın mühüm tərkib hissəsidir. Arxeoloji tədqiqatlar zamanı Ağdaş rayonu ərazisində Şıxlı, Oğuz rayonu ərazisində Calut, I və II Qarabulaq, həmçinin, Oğuz şəhərinin özündə yerləşən I və II Oğuz məbədi, Müqəddəs Yelisey məbədi, Şəki rayonunun Əlicançay sahilində yerləşən Küngüt, I və II Bideyiz, Orta Zəyzit və Baş Zəyzit alban məbədləri, Qəbələ rayonunun Türyançay sahilində yerləşən hissəsində məbəd yerləri öyrənilmişdir. Müəyyən eilmişdir ki, ilk orta əsrlərdə alban məbədləri ərazidə əsasən birnefli və üçnefli olmuşdur. Məlum olduğu kimi İslam dininin qəbulu ilə xristianlıq əhəmiyyətini itirmiş, yalnız bəzi yerlərdə IX – XIII əsrlərdə alban məbədləri bərpa edilərək dini ibadət yeri kimi fəlayiyyətini davam etdirmişdir. Bu yarımfəsildə ilk dəfə olaraq Ağdaş rayonunun Xınaxlı kəndi ərazisində yerləşən Şeyx Üveys (VIII əsr) , Aşağı Nemətabad kəndi ərazisində yerləşən Şeyx Həsən (XII əsr), Zərdab rayonunun Yuxarı Seyyidlər kəndi ərazisində yerləşən Seyyid Şahmərdan (XIII əsr) memorial abidələri ilk dəfə elmi cəhətdən tədqiqata cəlb olunmuşdur. Həmçinin, ərazidə yerləşən məscidlər və epiqrafik abidələr də öyrənilmişdir.

Dissertasiya işinin **III fəsli "Təsərrüfat həyatı"** adlanır. Burada Əlican – Türyançay hövzəsinin IV – XIII əsr abidələrindən əldə olunmuş maddi – mədəniyyət nümunələrinin təsnifatına əsasən əhalinin təsərrüfat həyatı tədqiq edilmişdir. Bu fəsil üç yarımfəsildən ibarət olmaqla əkinçilik, maldarlıq, sənətkarlıq kimi sahələr, həmçinin, sənətkarlığın müxtəlif sahələri, o cümlədən, dulusçuluq, metalişləmə, şüşə məmulatı istehsalı, daşişləmə, toxuculuq, zərbetmə və digərləri öyrənilmişdir. Kənd tipli yaşayış yerlərindən əldə edilmiş arxeoloji materiallar burada daha çox əkinçilik və maldarlığın

inkişafından xəbər verir. Şəhər yerlərindən isə daha çox sənətkarlıqla əlaqədar maddi mədəniyyət nümunələri əldə olunmuşdur. Onların içərisində saxsı məmulatı üstünlük təşkil edir ki, bunlar da şirsiz və şirli olmaqla iki qrupa ayrılır. Əldə olunmuş keramika məmulatı əsasən küp, küpə, dopu, xeyrə, qazan, bardaq, cam, vaza və s. tipli qablardan ibarətdir. Metal məmulatı içərisində həm məişətdə işlənən, həm də hərb sənətinə məxsus metal alətlər əldə olunmuşdur ki, sonuncular müdafiə və hücum tipli olmaqla iki qrupa ayrılır. Metal məmulatı dəmir və mis alətlərdən ibarətdir. Arxeoloji qazıntılar zamanı abidələrdən əldə olunmuş sikkə nümumələri içərisində Abbasilər və Atabəylərə məxsus olan mis pullar üstünlük təşkil edir edir. Atabəylərdən Məhəmməd Cahan Pəhləvan, Əbu Bəkr və Özbəyin adından buraxılmış numizmatik materiallar çoxluq təşkil edir. Şüşə məmulatı içərisində də həm məişətdə işlənən qablar, həm də bəzək əşyaları üstünlük təşkil edir. Yaşayış yerlərində aparılan tədqiqatlar zamanı ərazinin tikinti texnikası və inşaat materialı da öyrənilmişdir.

III fəslin birinci yarımfəsli **3.1. "Əkinçilik"** adlanır. Burada bağçılıq, bostançılıq, üzümçülük, şərabçılıq kimi təsərrüfat sahələri arxeoloji materiallar əsasında öyrənilmişdir. Şəhər və kənd tipli yaşayış yerlərindən, həmçinin, qəbir abidələrindən əldə olunmuş materiallar içərisində yuxarıda adı çəkilən əkinçilik sahələrinə aid bitki qalıqlarının üzə çıxması onun tədqiqinə imkan yaratmışdır.

Üçüncü fəslin ikinci yarımfəsli **3.2. "Maldarlıq"** adlanır. Əlican və Türyançay hövzəsinin təbii-coğrafi şəraiti burada maldarlığın ayrı-ayrı sahələrinin inkişafına şərait yaratmışdır. Burada yarımköçmə yaylaq maldarlığının xırda və iri buynuzlu heyvandarlıq, atçılıq, balıqçılıq kimi sahələrinin mövcudluğu əldə olunmuş arxeoloji materiallar əsasında təsdiq olunmuşdur. Yaşayış yerləri və qəbir abidələrindən əldə olunmuş osteoloji qalıqlara başlıca olaraq, aşkar olunmuş mədəni təbəqənin ocaq yerlərində, quyularda, təndirlərdə, təsərrüfat tipli tikililərin torpaq döşəmələrində və saxsı nümunələri içərisində rast gəlinmişdir ki, bunların da hər biri ayrı-ayrılıqda maldarlığın insan həyatında

önəmli yer tutduğunu göstərir. Əlican və Türyançay hövzəsində aparılmış arxeoloji qazıntılar zamanı iri və xırdabuynuzlu maldarlığa aid osteoloji qalıqların içərisində bir qayda olaraq keçi, qoyun, öküz, at və inək sümükləri aşkarlanaraq qeydə alınmışdır. Bu materialların tədqiqi bölgənin IV-XIII əsrlərə aid maldarlıq təsərrüfatında əsas yerin xırdabuynuzlu ev heyvanlarına aid olduğunu bir daha aydınlaşdırmışdır.

III fəslin üçüncü yarımfəsli **3.3. "Sənətkarlıq"** adlanır. Arxeoloji qazıntılar zamanı əldə olunmuş maddi mədəniyyət qalıqları IV – XIII əsrlərdə Əlican və Türyançay hövzəsində əkinçilik və maldarlıqla yanaşı sənətkarlığın ayrı-ayrı sahələrinin, xüsusilə də, dulusçuluq, metalişləmə, şüşə istehsalı, sümükişləmə, daşişləmə, ağacişləmə, toxuculuq, tikinti materialları istehsalının və digər sahələrin də mühüm yer tutduğundan xəbər verir. Ağdaş, Yevlax, Zərdab və Oğuz rayonları ərazisində aparılmış arxeoloji qazıntı və çöl-tədqiqat işləri nəticəsində orada müxtəlif sənət sahələrinin inkişaf tarixi öyrənilmişdir. Bu yarımfəsildə **3.3.1. "Dulusçuluq"**, **3.3.2. "Metalişləmə"**, **3.3.3. "Şüşə məmulatı istehsalı"**, **3.3.4. "Digər sənət sahələri"** adlı yarımbaşlıqlarda sənətkarlığın müxtəlif sahələri arxeoloji tədqiqat işləri zamanı əldə olunmuş maddi mədəniyyət nümunələri əsasında öyrənilmişdir.

**3.3.1. "Dulusçuluq".** Həm İlk orta əsrlərdə, həm də IX-XIII əsrlərdə ərazidə dulusçuluq sənəti özünəməxsus inkişaf mərhələsi keçmişdir. Əlican və Türyançay hövzəsində dulusçuluq sənətinin vəziyyətini və inkişaf səviyyəsini əks etdirən başlıca dəlillər qazıntılar zamanı aşkar olunmuş dulus kürələri və dulus məmulatlarıdır.

Dulusçuluq əhalinin gündəlik tələblərinə xidmət etdiyi üçün xalqın mədəni və məişət həyatı ilə bilavasitə yaxından əlaqədar olmuşdur. Əlican və Türyançay hövzəsində forma və tərkibi cəhətcə başqa arxeoloji materiallara nisbətən daha yaxşı qalmış ilk orta əsr gil məmulatı özündən əvvəlki və sonrakı dövr gil məmulatından fərqlənir. Bu, əsasən, keramikanın hazırlanma texnologiyasında özünü göstərir. Bu dövr dulusçuluqda, əsasən, geriləmə dövrü kimi xarakterizə edilir.

VIII – IX əsrlərdən etibarən zərgərlik, şüşə, ağacişləmə və digər sənət sahələri yenidən dirçəlir. Təbii ki, Sasani – Bizans, Sasani – Ərəb, Ərəb – Xəzər müharibələri əhalinin təsərrüfat həyatına, o cümlədən, sənətkarlığa da təsir göstərirdi. Əhalinin tələbatını ödəmək üçün dulusçuluqla peşəkar ustalarla yanaşı xüsusi hazırlığı olmayanlar da məşğul olmuş, bəzi hallarda ailələr özünə lazım olan məişət qablarını özləri hazırlamışlar. Bu səbəbdən də qablar əsasən kobud və çox bəsit olurdu.

Əlican – Türyançay hövzəsi abidələrindən əldə olunmuş saxsı məmulatına əsasən söyləmək olar ki, Azərbaycanın digər yerlərində olduğu kimi burada da III – V əsrlərin gil qabları ilə VI-VIII əsrlərin gil qabları arasında onların hazırlanması nöqteyi-nəzərindən müəyyən fərq vardır. VI-VIII əsrlərin gil qabları özlərinin zərifliyi və bişməsi cəhətindən əvvəlki əsrlərin gil qablarından keyfiyyətcə aşağıdır.

IX – XIII əsrlərdə istehsal edilən saxsı qablar istər hazırlanma texnikasına, istərsə də zəngin bəzək elementlərinə görə həm əvvəlki, həm də sonrakı dövrlərlə müqayisədə çox fərqlənirdi. Su kəmərləri üçün saxsı boruların, tikinti işlərində geniş istifadə edilən kaşı və bəzək kərpiclərinin istehsalına başlanması da bu dövrlə bağlıdır.

***Şirsiz saxsı məmulatı.*** Əlican və Türyançay hövzəsinin ilk orta əsrlərə aid gil qabları əsasən şirsiz keramika olmaqla dissertasiya işində küpələr, kasalar, küplər, bardaqlar, süddanlar, vazalar, sərniclər, çıraqlar, şamdanlar, dolçalar, kuzələr, bərnilər, dopular, xeyrələr, kuvəclər, nəlbəkilər, camlar, su qabları, çaydanlar, qazanlar, tavalar, badyalar, çölməklər, qapaqlar, zoomorf tipli qablar, oyuncaqlar, su tüngləri və iy başlıqları kimi təsnifatlandırılmışdır.

***Şirli saxsı məmulatı.*** Əlican və Türyançay hövzəsində IX – XIII əsrlərə aid yaşayış yerlərindən əldə olunmuş keramika məmulatının bir qismi şirli qablardan ibarətdir. Tədqiqatlar göstərir ki, XII – XIII əsrlərdə dulusçuluq daha da inkişaf edir. Bu dövrdə dulus kürələrinin forması təkmilləşir, saxsı qabların keyfiyyəti və çeşidi artır, tikintidə işlənən saxsı məmulatı – kərpic, kirəmit, boru istehsalı çoxalır, fiqurlu kərpic və kaşı

istehsalına başlanır, dulusçuluqda, xüsusilə qabların bədii işlənməsində bir sıra yeni texniki üsullar tətbiq olunur. Şirli saxsı məmulatı küpə, vaza, boşqab, çıraq, xeyrə, nehrə, cam, dopu, dolça, kuzə, nəməkdan tipli qablar kimi təsnifatlandırılmışdır.

**"Dulusçuluq"** adlı yarımbaşlığın sonunda ***"İnşaat keramikası"*** tədqiqata cəlb olunmuşdur. IV-XIII əsrlərdə Azərbaycanda tikinti keramikası da yüksək inkişaf etməsilə əlaqədar ərazidə sarayların, karvansaraların, hamamların tikintisi zamanı şirli üzlük materialdan və keramik mozaikadan geniş istifadə edilirdi. Əlican və Türyançay hövzəsində IV – XIII əsrlərə aid müdafiə istehkamları və memorial abidələrdə aparılmış elmi tədqiqat işləri nəticəsində inşaat sənətinə aid müəyyən materiallar əldə olunmuşdur.

III fəslin üçüncü yarımfəslinin ikinci yarımbaşlığı **3.3.2. "Metalişləmə"** adlanır. Əlican və Türyançay hövzəsində IV – XIII əsrlərdə əhalinin əsas məşğuliyyət növlərindən biri də metalişləmə sənəti olmuşdur. Burada metalişləmənin müxtəlif sahələri – dəmirçilik, misgərlik, zərgərlik və s. inkişaf etmişdir. Əlican və Türyançay hövzəsində metalişləmə ilə bağlı olan bir sıra toponomik adlar indi də qalmaqdadır. Məsələn, Zərdabda "Gümüşlü" yaşayış yeri, "Bıçaqçı" kənd adlarını və s. göstərmək olar.

Bu yarımfəsildə ***dəmirçilik***, ***misgərlik*** və ***zərgərlik*** kimi sahələrə məxsus metal məmulatı ayrı-ayrılıqda təsnifatlandırılmışdır. Dəmir alətlər məişət və tikinti əşyaları kimi bıçaqlar, qayçılar, çəki daşları, nal və mıxlar, silahlar kimi nizə ucluqları, ox ucluqları, xəncərlər adı ilə təsnifatlandırılmışdır. Mis alətlər isə çəkiclər, qıyıqlar, oymaqlar, bizlər, məişət əşyaları kimi qazanlar, tayqulp qablar, vazalar, camlar, mürəkkəb qabı, çıraqlar adı ilə təsnifatlandırılmışdır.

***"Zərgərlik".*** Metalişləmə sənətinin mühüm sahələrindən biri də zərgərlikdir. Arxeoloji materiallar və yazılı mənbələrdən aydın olur ki, IV – XIII əsrlərdə Əlican və Türyançay hövzəsində sənətkarlığın bu sahəsi xüsusi inkişaf etmişdi. Arxeoloji qazıntılar zamanı tapılan üzük, sırğa, bilərzik və müxtəlif asma bəzəklər bu ərazidə zərgərlik sənətinin xüsusiyyətlərini öyrənməyə imkan

vermişdir. Bu sənət sahəsinə məxsus maddi mədəniyyət nümunələri bilərziklər, üzüklər, sırğalar, muncuqlar, asmalar, sancaqlar, toqqalar adı ilə təsnifatlandırılmışdır.

**"Metalişləmə"** adlı ikinci yarımbaşlığın sonunda ***zərbetmə sənəti*** əldə olunmuş numizmatik materiallar əsasında öyrənilmişdir. Dissertasiya işində əsas tədqiqat obyekti olan IV – XIII əsr abidələrinin dəqiq tarixinin müəyyənləşdirilməsində məhz həmin numizmatik materialların əhəmiyyəti olduqca böyükdür. Arxeoloji tədqiqat işləri zamanı istər ilk orta əsrlərə, istər Xilafət dövrü, istərsə də Atabəylər və Şirvanşahlar dövlətinə məxsus sikkə nümunələrinin əldə olunması həmin numizmatik materialların aşkar olunduğu mədəni təbəqələrin xronoloji cəhətdən öyrənilməsi işinə imkan yaratmışdır.

III fəslin üçüncü yarımfəslinin üçüncü yarımbaşlığı **3.3.3. "Şüşə məmulatı istehsalı"** adlanır. Əlican və Türyançay hövzəsində aparılmış arxeoloji tədqiqat işləri burada IV – XIII əsrlərdə əhalinin həyatında şüşə məmulatı istehsalının da yer tutduğunu söyləməyə əsas verir. Əlican və Türyançay hövzəsi abidələrindən əldə olunmuş şüşə istehsalı sahəsinə aid maddi mədəniyyət nümunələri vazalar, bərnilər, qrafinə oxşar qablar, qədəhlər, bəzək əşyaları içərisində muncuqlar, üzüklər, şüşə möhürlər, qolbaqlar, ətir qabları adı ilə təsnifatlandırılmışdır.

III fəslin üçüncü yarımfəslinin son yarımbaşlığı **3.3.4. "Digər sənət sahələri"** adlanır ki, burada da sümükişləmə, daşişləmə, toxuculuq kimi sahələr elmi tədqiqata cəlb olunmuşdur. Bu yarımfəsildə qeyd olunan sənət sahələri Əlican və Türyançay hövzəsinin IV – XIII əsrlərə aid abidələrindən əldə olunmuş sümük və daş məmulatı, toxuculuq sahəsinə aid maddi mədəniyyət nümunələri əsasında öyrənilmişdir.

Dissertasiya işinin sonunda elmi tədqiqatın mühüm **nəticələri** göstərilmişdir. Tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, qeyd olunan ərazidəki yaşayış yerlərinin əksəriyyəti kənd tipli yaşayış məntəqələridir. Bunu arxeoloji qazıntılar zamanı yaşayış yerlərindən üzə çıxarılmış qalıqlar, o cümlədən, həmdövr maddi mədəniyyət nümunələri də təsdiq edir.

Tədqiqatlar göstərir ki, Azərbaycanın digər yerlərində olduğu

kimi Əlican və Türyançay hövzəsində də yaşayış yerləri, əsasən, çay kənarlarında və ya ona yaxın ərazilərdə salınıb. Bu isə ərazidə yaşamış əhalinin su ilə təchizatı məsələsindən irəli gəlirdi. İlk orta əsrlərdə antik dövrlə müqayisədə demoqrafik artım müşahidə olunurdu ki, bu da həm təbii artım, həm də daxili miqrasiya hesabına baş verirdi. Əlican və Türyançay hövzəsində aparılmış arxeoloji tədqiqatlar göstərir ki, orada müdafiə istehkamları, əsasən, şimal sərhəddinə yaxın yerlərdə, həmçinin, sənətkarlıq və ticarət mərkəzləri hesab olunan şəhərlərin  yaxınlığında bina edilirdi. Müdafiə tipli tikililərin və qalaların əlverişli strateji-coğrafi mövqedə salınması müşahidə olunur. VI-VII əsrlər alban memarlığının çiçəklənmə dövrü olmuşdur. Bu proses Əlican - Türyançay hövzəsində inşa edilmiş Calut, Şıxlı, Qarabaldır, I və II Oğuz məbədlərində də özünü göstərirdi. Özlərinin xristian dini mənsubluğunu saxlayan albanlar VIII – XIII əsrlərdə ərazidə ilk orta əsr məbədlərini bərpa edir və ya yeni məbədlər tikirdi. Lakin VIII əsrdən etibarən bütün Azərbaycanda olduğu kimi Əlican - Türyançay hövzəsində də gümbəzli tikililər formalaşmağa başlayır ki, bu da İslam memarlığının təsirinin nəticəsi idi. Artıq VIII-XIII əsrlərdə Əlican - Türyançay hövzəsində dini komplekslər  daha çox məscid-mədrəsə sisteminə əsaslanırdı.

Əlican - Türyançay hövzəsinin IV-XIII əsrlərə aid yaşayış yerləri, müdafiə istehkamları, qəbir abidələri və memorial tikililərdə aparılan tədqiqatlar burada əkinçilik, maldarlıq və sənətkarlığın müxtəlif sahələrinin mövcud olduğunu göstərir.

Beləliklə, Əlican - Türyançay hövzəsinin IV – XIII əsr abidələrində aparılmış tarixi-arxeoloji tədqiqi orada mövcud olmuş yaşayış yerlərinin, müdafiə istehkamlarının, qəbir abidələri və memorial tikililərin öyrənilməsi nəticəsində tariximizin ilk orta əsr və orta əsrlər dövrünə dair bir sıra yeni məlumatlar əldə etməyə imkan vermişdir. Tarixi Azərbaycan torpaqlarının tərkib hissəsi kimi Əlican – Türyançay hövzəsinin IV – XIII əsrlər dövrü abidələrinin tarixi – arxeoloji cəhətdən tədqiqi məsələsi əsas məqsəd kimi qarşıya qoyulmuş və nəticədə nəzərdə tutulmuş məqsədə elmi cəhətdən nail olunmuşdur.

Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı məqalələrində nəşr edilmişdir:

1. Dünya ticarətində Bərdə şəhərinin rolu // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, Bakı, 2005, N 2, s. 47-52 (müştərək)
2. Mingəçevir arxeoloji kompleksi / Mingəçevir arxeoloji ekspedisiyası – 60, Elmi-praktik konfransın materialları, Mingəçevir, 2006, s. 119-121 (müştərək)
3. Bir daha Qarabağın orta əsr abidələri haqqında / Azərbaycanın antik və orta əsr arxeologiyası problemləri (Ö.Ş.İsmizadənin anadan olmasının 100 illiyinə həsr olunur), Bakı, 2006, s. 100-102 (müştərək)
4. Gəncə arxeoloji ekspedisiyasının qazıntıları // Azərbaycanda arxeoloji tədqiqatlar – 2008, s. 112-113 (müştərək)
5. Bərdənin orta əsr memarlıq abidələri / Qarabağın tarixi, arxeologiyası, etnoqrafiyası və Bərdə şəhərinin 3000 illiyi, Elmi-praktik konfransın materialları, Bərdə, 2009, s. 61-66 (müştərək)
6. Goranboyun şəhər tipli yaşayış yerləri / Bakı Dövlət Universitetinin 90 illik yubileyi münasibətilə magistrantların və gənc tədqiqatçıların elmi-praktik konfransının materialları, Bakı, 2009, s. 105-108
7. Gəncə arxeoloji ekspedisiyasının 2009-cu ildəki arxeoloji qazıntı və çöl-tədqiqat işləri // Azərbaycanda arxeoloji tədqiqatlar, Bakı, 2009, s. 257-260 (müştərək)
8. Goranboyun orta əsr müdafiə istehkamları / Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü münasibətilə Tarix fakültəsi professor-müəllim heyətinin və magistrantlarının Elmi-praktik konfransının materialları, Bakı, 2010, s. 114-117
9. Qoruqbağı (Zərdab rayonu) əhalisinin etnik mənşəyi haqqında (arxeoloji, etnoqrafik və antropoloji materiallar əsasında) / Ümummilli Lider Heydər Əliyevin anadan

olmasının 87-ci ildönümü münasibətilə Tarix fakültəsi professor-müəllim heyətinin və magistrantlarının Elmi-praktik konfransının materialları, Bakı, 2010, s. 117-120

10. Azərbaycanın Antik və İlk orta əsrlər arxeologiyasının öyrənilməsi (1940-60-cı illər) // Tarix və onun problemləri, Bakı, 2010, N 1, s. 233-237

11. Gəncə şəhəri monqol hücumları dövründə / Gəncə tarixinin aktual problemləri, II Elmi-praktik konfransının materialları, Gəncə, 2010, s. 63-65

12. Gəncədə arxeoloji tədqiqatlar (Gəncə şəhəri, Goranboy rayonu) // Azərbaycanda arxeoloji tədqiqatlar – 2011, Bakı, 2012, s. 266-270 (müştərək)

13. Qırxçıraq yaşayış yerində aparılmış arxeoloji tədqiqatlar haqqında / Salyanın tarixi, arxeologiyası, etnoqrafiyası və memarlığı – Elmi-praktik konfransın materialları, Salyan, 2012, s. 82-87

14. Xəzər xaqanlığının tarixinin öyrənilməsində arxeoloji tədqiqatların rolu // Tarix və onun problemləri, Bakı, 2012, N 2, s. 359-363

15. Əlicançay hövzəsində Nemətabad (Ağdaş rayonu) qəbir abidələri // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, Bakı, 2011, N 1, s. 83-86

16. Ərəş şəhəri orta əsr mənbələrində / Görkəmli Azərbaycan tarixçisi və şərqşünas alim akademik Ziya Bünyadovun anadan olmasının 90 illiyi münasibətilə magistrantların və gənc tədqiqatçıların Elmi-praktik konfrasnının materialları, Bakı, 2012, s. 63-66

17. Qızılhacılı tayfası haqqında // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, Bakı, 2011, N 2, s. 36-38

18. Azərbaycanda Tunc və İlk Dəmir dövrünün tədqiqi (1940-60-cı illər) // Tarix və onun problemləri, Bakı, 2012, N 3, s. 311-315

19. Əlicançay hövzəsinin alban dövrü qəbir abidələri // Tarix və

onun problemləri, Bakı, 2012, N 4, s. 256-260
**20.** Əlican və Türyançay hövzəsi və xəzərlər (tarixi-arxeoloji materiallar və toponimlər əsasında) // Tarix və onun problemləri, Bakı, 2013, N 1, s. 219-228
**21.** Qoruqbağı əhalisinin etnogenezi haqqında (tarixi və etno-antropoloji materiallar əsasında ) // Tarix və onun problemləri - Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş xüsusi buraxılış, Bakı, 2013, N 2, s. 357-361
**22.** Əlican və Türyançay hövzəsinin tunc dövrü qəbir abidələri haqqında / Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 90-cı ildönümü münasibətilə magistrantların və gənc tədqiqatçıların Respublika elmi-praktik konfransının materialları, Bakı, 2013, s. 55-59
**23.** Bərdədə arxeoloji qazıntılar (Bərdə rayonu) // Azərbaycanda arxeoloji tədqiqatlar – 2012, Toplu Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr olunur, Bakı, 2013, s. 208-211 (müştərək)
**24.** Azərbaycanın Orta əsrlər dövrünün arxeoloji tədqiqi (1940-60-cı illər) // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, Bakı, 2012, N 1, s. 91-94
**25.** Əlican və Türyançay hövzəsinin memorial abidələri // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, Bakı, 2013, N 1, s. 65-71
**26.** Античные и средневековые могильные памятники Евлах-Мингечевирского региона // «Гилея: научный вестник», Киев, 2013, выпуск 71, № 4, с. 378-381
**27.** Изучение археологии Азербайджана каменного и энеолитического периода (1940-60-х годов) // «Гилея: научный вестник», Киев, 2013, выпуск 76, № 9, с. 95-97
**28.** The medieval city on the basin of Alijanchay // Thesis International Scientific Conference "Archaeology and Ethnography of Azerbaijan in the independent period"

dedicated to the $20^{th}$ anniversary of the establishment of the Institute, Baku, November 10-14, 2013, pp. 183-184

**29.** Əlican və Türyançay hövzəsinin dağlıq və dağətəyi ərazilərinin IV – XIII əsr arxeoloji abidələri haqqında // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, Bakı, 2013, N 2, s. 52-62

**30.** Əlican və Türyançay hövzəsinin küp qəbirləri // Tarix və onun problemləri, Bakı, 2013, N 4, s. 320-325

**31.** Zərdabın tarixi – siyasi coğrafiyası // Tarix və onun problemləri, Bakı, 2014, N 1, s. 307-314

*Талех Васиф оглу Алиев*

**Историко-археологическое исследование Алиджанского и Турйанчайского бассейна (IV – XIII вв.)**

## РЕЗЮМЕ

Диссертационная работа состоит из принятых сокращений, введения, трех глав, заключения, перечня использованной литературы, иллюстраций. В введении нашли отрашение актуальность темы, источниковедческая база, степень изученности, хронологические рамки, научная новизна, метод исследования, апробация и структура диссертации.

I глава “Поселения и оборонительные сооружения” и состоит из четырех подглав: “Естественно-географическая характеристика и историко-политическая география территории”; “Города” (здесь исследованы городища Габала, Араш, Ерагзы (Бердидж), Гур-гур (Гутлуг-Балыг)); “Поселения сельского типа” (изучены такие поселения сельского типа как Молла Горуглу, Тиканлы, Ашагы Леки, Джалут, Уч-тепе, Гараул-тепе, Гюмюшлу, Коланы, Чийни и др.); “Оборонительные сооружения” (исследованы Теркеш, Огуз, Мухас, Айдынбулаг, Кюнгют, Сурхаб, Девичьи башни, Хачмаз, Келдек и Бум Гявургалалары (вместе с Ахы-тепе) и сторожевые пункты).

II глава “Могильные памятники и религиозно-мемориальные сооружения” состоит из двух подглав; “Могильные памятники” (здесь изучены кувшинные, грунтовые, катакомбные и ванночные погребения); “Религиозно-мемориальные сооружения” (здесь привлечены к исследованию – памятники огнепоклонства, христанские и мусульманские).

III глава “Хозяйственная жизнь” состоит из трех подглав; “Земледелие”, “Скотоводство”, “Ремесленничество”, где классифицированы археологические выявленные материалы. В заключении представленной диссертации сделаны ряд выводов и подводены значительные итоги научного исследования.

*Taleh Vasif oghlu Aliyev*

**The historical – archaeological research of the basin of Alijan and Turyanchay (IV – XIII centuries)**

**SUMMARY**

The dissertation work consists of the adopting abridgements, introduction, three chapters, conclusion, the list of the used scientific literature, the illustrations which have added to the text part.

In the introduction it deals with the topicality of the theme, sources, level of its studying, chronological frame, scientific novelty, the method of research, approbation and structure.

The first chapter is called "The settlements and defensive fortifications" and consists of four sub-chapters: "The natural-geographical description and historical-political geography"; "Cities" (here has been drowned Gabala, Yeraghzy (Bardij), Eresh, Gur-gur (Gutlug-Balyk) city places into the research); "The rural type settlements" (here has been studied the rural type settlements like as Molla Goruglu, Tikanli, Ashagy Leki, Jalut, Uchtepe, Garaultepe, Gumushlu, Kolani, Chiyni and etc); "The defensive fortifications" (here has been scientifically investigated Terkesh, Oghuz, Mukhas, Aydinbulag, Kungut, Surkhab, Maiden towers, Khachmas, Keldek and Bum Govurgalas (with Akhitepe) and the guard points).

The second chapter is called "The grave monuments and religious-memorial buildings". This chapter consists of the two sub-chapters: "The grave monuments" (here has been studied the grave types like as a big pitcher, earth, catacomb, glazed trough graves); "The religious-memorial buildings" (here has been drowned the fire-worshipper, Christian and Islam monuments into the research).

The third chapter is called "The economic life". This chapter consists of three sub-chapters: "Agriculture"; "The cattle-breeding"; "The handicraft" which has been classified and scientifically researched the archaeological materials. In the conclusion it deals with the significant results of the scientific research.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ**

***На правах рукописи***

**ТАЛЕХ ВАСИФ оглу АЛИЕВ**

# ИСТОРИКО-АРХЕОЛОГИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ АЛИДЖАНСКОГО И ТУРЙАНЧАЙСКОГО БАССЕЙНА (IV – XIII вв.)

**5505.02 – Археология**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по истории**

**БАКУ – 2014**